# USAID-in Azərbaycandakı fəaliyyəti ölkəmizin uğurlarına kölgə salmağa hədəflənmişdi

"Amerika Birləşmiş Ştatlarının Prezidenti Donald Tramp fəaliyyətə başladığı gün imzaladığı qərarlarla qlobal sistemin artıq əvvəlki mexanizmlərlə idarə edilməyəcəyinin mesajını verdi. Bu qərarlar arasında ABŞ-ın Beynəlxalq İnkişaf Agentliyinin (USAlD) fəaliyyətinin dayandırılması kifayət qədər geniş müzakirələrə səbəb olub. Ümumiyyətlə, bu qurumun fəaliyyət göstərdiyi bölgələrə nəzər yetirdikdə destruktiv yanaşmaların və dövlətlərin daxili işlərinə müdaxilə mexanizmlərinin üstünlük təşkil etdiyini aydın şəkildə görmək mümkündür".




Bu sözləri AZƏRTAC-a açıqlamasında politoloq Aytən Qurbanova söyləyib.

Politoloq bildirib ki, USAID dünyanın fərqli bölgələrində inkişaf və humanitar yardım layihələrini həyata keçirən əsas orqanlardan biri kimi tanınsa da, tədricən media və vətəndaş cəmiyyətinin nümayəndələrinin maliyyələşdirilməsi yolu ilə fərqli cəmiyyətlərdə radikal qruplaşmaların yaradılmasını, dövlət idarəçiliyinə qarşı qərəzli məlumatların paylaşılmasını birbaşa təşviq edən mərkəzə çevrilib. USAID-in Azərbaycandakı fəaliyyəti də məhz milli düşüncənin hədəf alınması, ayrı-seçkiliyin təşviqi və uğurlu diplomatik addımların ləkələnməsi kampaniyasına çevrilmişdi. Prezident İlham Əliyev Dmitri Kiselyova verdiyi müsahibə zamanı bu məsələlərə xüsusilə diqqət çəkərək USAID-in maliyyə vəsaiti hesabına anti-Azərbaycan kampaniyası aparan "Azadlıq radiosu" və "Amerikanın səsi" kimi media qurumlarının əsl mahiyyətini açıq və konkret şəkildə ifadə etmişdi.

"İkinci Qarabağ müharibəsi nəticəsində qazanılan tarixi Zəfərimiz, ərazi bütövlüyümüzün bərpası və yaradılan yeni reallıqlarla barışmaq istəməyən mərkəzlərin ortaq şəbəkəsinə çevrilmiş bu media subyektləri cəmiyyətdə qeyri-sabitliyi təşviq edəcək yalan məlumatların tirajlanması ilə bağlı direktivləri də məhz USAID agentlərindən almışdılar. Təbii ki, onların atdıqları addımlar müvafiq dövlət qurumlarının nəzarəti altında olduğu üçün hədəflərinə heç vaxt çata bilmədilər. Amma ümumilikdə onların fəaliyyəti hər zaman birbaşa olaraq Azərbaycanın uğurlarına kölgə salmağa və ictimai rəyi manipulyasiya etməyə hədəflənmişdi. Nəticə etibarilə USAID-in Azərbaycandakı fəaliyyətinin dayandırılması ilə bağlı qərar bilavasitə milli maraqların və təhlükəsizliyin təmin olunması, xarici qüvvələrin dövlətin daxili işlərinə qarışmaq cəhdlərinin qarşısının alınması üçün labüd addım idi. Hətta bu qurumun fəaliyyətinin bütövlükdə ləğvinin zəruriliyi ilə bağlı mesajlar çox qısa müddət əvvəl dövlətimizin başçısı tərəfindən aydın şəkildə ifadə edilmişdi. Ona görə də Donald Tramp tərəfindən USAID-in fəaliyyətinin dayandırılması ilə bağlı qərarın qəbul edilməsi gözlənilən idi. Amma təbii ki, bu qərar hər kəs tərəfindən birmənalı qarşılanmadı. Bu qurumun maliyyə dəstəyi ilə sifarişli xəbərlər paylaşan qlobal media korporasiyaları üçün bu qərar təbii ki, qəbuledilməzdir", - deyə A.Qurbanova vurğulayıb.

Politoloqun sözlərinə görə, USAID məsələsində Demokratlarla Respublikaçıların kəskin mübarizəsinin başladığını da müşahidə etmək mümkündür. Konqresdə bu qurumun ləğv olunub-olunmaması ilə bağlı kəskin müzakirələrin gedəcəyi ehtimallar arasında ən çox səsləndirilən yanaşmalardandır. İndiki məqamda USAID-in fəaliyyətinin bu dərəcədə ifşa olunması və ilkin yaranma məqsədlərindən çox uzaqlaşması ilə bağlı faktlar onun ləğvini sürətləndirəcək güclü arqumentlərdir. Xüsusilə də onu nəzərə alsaq ki, bu qurumun fəaliyyəti artıq ABŞ-nin beynəlxalq nüfuzuna da ciddi zərbə vurmağa və dövlətlərin narazılığına səbəb olub, deməli, bu müzakirələrdə Respublikaçıların mövqeyinin daha güclü olacağını əminliklə bildirə bilərik.

Azərbaycan.- 2025.- 12 fevral (№ 31).- S.12.